

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 99 (23.010)

26 may 2018-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ə.M.Əbilovun Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əbil Mehrac oğlu Əbilov Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 may 2018-ci il*

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib

Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk təşkilatının iştirakı ilə keçirilən konfransdan öncə bu münasibətlə təşkil edilmiş sərgiyə baxış olub. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov 1918-ci il mayın 28-də müsəlman Şərqində yaradılan və xalqımızın dövlətçilik tarixində misilsiz rolu olan ilk demokratik, parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyəti barədə məlumat verib. Vurğulanıb ki, 1993-cü ildə xalqımızın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra görkəmli dövlət xadiminin qətiyyəti sayəsində Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə siyasi-hüquqi qiymət verilib, həmin dövrün dövlət rəmzləri və himni bərpa olunub. Rektor tarixi gün münasibətilə konfrans iştirakçılarını təbrik edib.

"Cümhuriyyətə işıq saçan qadınlar" mövzusunda məruzə edən Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə elmlər doktoru Sevinc Abbasova qeyd edib ki, cümhuriyyət dövrünün ziyalı qadınları, əsasən, mədəni-maarif, sosial, ictimai sahədə fəaliyyət göstəriblər. Həm pedaqoji, həm də publisistik fəaliyyətlərinin kökündə maarifçilik missiyası duran bu xanımların dövrün kişilərindən geri qalmadığını önə çəkən məruzəçi buna cümhuriyyət hakimiyyətinin qadın hüquqları istiqamətində apardığı düzgün siyasət nəticəsində nail olunduğunu vurğulayıb.

Tədbir İncəsənət fakültəsi tələbələrinin ifasında konsert proqramı ilə davam edib.

* * *



Naxçıvan Müəllimlər İnstitutunda keçirilən konfransı giriş sözü ilə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, AMEA-nın müxbir üzvü Oruc Həsənli açaraq bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti çox çətin bir şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, bu dövrdə Azərbaycan dövlətçiliyi üçün vacib olan bir sıra məsələlər həll edilib, siyasi və sosial sahədə bir çox islahatlar həyata keçirilib. Cəmi 23 ay fəaliyyət göstərsə də, milli dövlətçiliyimizin inkişafı üçün çox mühüm qərarlar qəbul edilib, təhsil, səhiyyə, mədəniyyət, ordu quruculuğu sahələrində böyük addımlar atılıb. Ötən əsrin sonlarında Azərbaycan öz müstəqilliyini yenidən qazandıqdan sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində bu müstəqillik qorunub saxlanıldı, milli dövlətçiliyimizin varislik ənənələri üzərində inkişafı təmin edildi.

Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Elçin Zamanov "Azərbaycan Xalq Cümhuriyyətinin quruluşu, daxili və xarici siyasəti" mövzusunda çıxış edib. Diqqətə çatdırılıb ki, Xalq Cümhuriyyəti Azərbaycan tarixinin xüsusi səhifəsini təşkil edir. Şərqdə ilk demokratik cümhuriyyət olan bu dövlət tamamilə demokratik prinsiplər əsasında fəaliyyət göstərib. Vurğulanıb ki, Azərbaycan Xalq Cümhuriyyəti ölkə daxilində bir çox mühüm işlər həyata keçirməklə yanaşı, beynəlxalq aləmdə tanınmaq, ölkənin siyasi maraqlarını beynəlxalq səviyyədə müdafiə etmək üçün ciddi addımlar atıb.

Qeyd olunub ki, Xalq Cümhuriyyəti dövründə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan çox gərgin bir vəziyyətdə olsa da, naxçıvanlıların mübarizliyi nəticəsində bu ərazi Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılıb.

Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, filologiya üzrə elmlər doktoru, professor Sədaqət Həsənova "Bədii dildə Azərbaycan bayrağının tərənnümü" mövzusunda çıxış edib.



***"Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizdə müstəsna rola malikdir" mövzusunda Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında keçirilən tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov məruzə edib.***

Bildirib ki, dövlət başçısının 2017-ci il 16 may tarixli Sərəncamına əsasən bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ölkəmizdə geniş şəkildə qeyd olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 25 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"na uyğun olaraq muxtar respublikada da bir sıra tədbirlər keçirilir.

"23 ay yaşamasına baxmayaraq, cümhuriyyət zəngin dövlətçilik tariximizdə silinməz izlər qoyub", – deyən təşkilat sədri vurğulayıb ki, 1918-ci ilin 28 mayında yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti çox çətin bir şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, bu dövrdə Azərbaycan dövlətçiliyi üçün vacib olan bir sıra məsələlər həll edilib, siyasi və sosial sahədə bir çox islahatlar həyata keçirilib.

Qeyd olunub ki, Xalq Cümhuriyyəti dövründə Naxçıvan çox gərgin bir vəziyyətdə olsa da, naxçıvanlıların mübarizliyi nəticəsində bu ərazi Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılıb.

Məruzəçi diqqətə çatdırıb ki, Azərbaycanın müstəqil dövlət idealları 70 il sonra – ötən əsrin 90-cı illərində Naxçıvanda şölələnib. Bu dövrdə Naxçıvan Muxtar Respublikasında yaşayan, Ali Məclisin Sədri vəzifəsində işləyən ulu öndər Heydər Əli-yevin təşəbbüsü ilə Xalq Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi dövlət bayrağı kimi qəbul edilib, muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılıb. Görkəmli dövlət xadiminin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə dövlətçiliyimizin qorunması istiqamətində mühüm tədbirlər reallaşdırılıb, müstəqilliyimiz əbədi və dönməz olub.

Sonda təşkilatın sədr müavini, şura üzvü Nihal Məmmədov, Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Turan Məmmədli və şura üzvü Ovni Muradovun çıxışları dinlənilib.

* * *



*Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Təhsil Şöbəsi ilə birlikdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə tədbir keçirib. Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimovun məruzəsi dinlənilib.*

Qeyd olunub ki, Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik dövlətdir. 1991-ci ilin oktyabrında xalqımız yenidən öz müstəqilliyinə qovuşsa da, hakimiyyətə gələn təsadüfi insanların səriştəsizliyi nəticəsində bugünkü müstəqil dövlətimiz Xalq Cümhuriyyətinin taleyini yaşayacaqdı. Ancaq azadlıqsevər xalqımız ümidini ümummilli liderimiz Heydər Əliyevə bağlayaraq onun ölkə rəhbərliyinə qayıdışını təkidlə tələb etdi. Dahi şəxsiyyətin yenidən hakimiyyətə gəlməsi ilə müstəqilliyimiz əbədi və dönməz xarakter aldı.

Artıq müasir, müstəqil Azərbaycan 27 ildir ki, yaşayır, inkişaf edir, dünya ölkələri arasında özünəməxsus yer tutur. Bu gün respublikamızın nüfuzu və şöhrəti durmadan artır, mövcud sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Bütün bunlar ulu öndərin siyasi kursunun Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin nəticəsidir.

Vurğulanıb ki, ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da müstəqilliyimizin ötən 27 ili ərzində blokadada olmasına baxmayaraq, yüksək inkişaf yolu keçib. Ümummilli liderimizlə başlayan bu yol Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə uğurla davam etdirilir, qədim diyarımız sosial-iqtisadi baxımdan sürətlə inkişaf edir.

Qeyd olunub ki, bu gün Culfa rayonunun mərkəzi Culfa şəhərində və bütün kənd yaşayış məntəqələrində də geniş miqyasda aparılan quruculuq, abadlıq və yaşıllaşdırma tədbirləri sürətlə davam etdirilməkdədir. Son illər ərzində tikilib istifadəyə verilən, yenidən qurulan onlarla sosial obyekt şəhər və kəndlərimizin simasını tamamilə dəyişib, gözəlləşdirib.

Rayon Təhsil Şöbəsinin müdiri Mehdixan Əliyev tədbirdə çıxış edərək Azərbaycan Xalq Cümhuriyyəti dövründən başlanan təhsil quruculuğundan, bu gün bu sahədə qazanılan uğurlardan danışıb.

Tədbirdə məktəblilər müstəqilliyimizə həsr olunmuş şeir və mahnılar ifa edib, tarixi film nümayiş olunub.

* * *



Naxçıvan Dövlət Texniki Kollecində keçirilən tədbiri giriş sözü ilə açan kollecin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanov vurğulayıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan Respublikası bu gün dünya birliyində müstəqil dövlət kimi böyük nüfuz qazanıb. Respublikamızda demokratik ənənələr, söz, fikir və mətbuat azadlığı ən yüksək səviyyədə qorunur.

Tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi" mövzusunda məruzə edib. O, Xalq Cümhuriyyətinin xalqımızın qədim dövlətçilik ənənələrinin yaşadılmasındakı rolundan danışıb, həmin dövrdə dövlət təsisatlarının yaradılmasının əhəmiyyətini qeyd edib.

Bildirilib ki, 100 il əvvəl, may ayının 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində mühüm bir hadisə olub. Cümhuriyyətin yaradılması və elan edilməsi, həmin dövrdə ölkəmizdə cərəyan edən hadisələr, milli dövlətimizin hələ yüz il bundan öncə, hətta bir çox Qərb ölkələrindən əvvəl demokratik dəyərləri bəyan etdiyini, irqindən, dinindən, sosial vəziyyətindən asılı olmayaraq, hər bir vətəndaşına bərabər hüquqlar, qadınlara səsvermə və təhsil almaq hüququ verdiyini vurğulayıb. Azərbaycan Respublikasının Xalq Cümhuriyyətinin varisi olaraq onun bütün demokratik ənənələrinə sadiq qaldığını və bu ənənələri bu gün də yaşatdığını bildirib.

Sonra kollecin müəllimləri – Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Sürəyya Ələkbərovanın "Xalq Cümhuriyyəti parlamentinin yaradılması milli demokratik dövlət quruculuğunun şərəfli səhifəsidir", Gülər Bayramovanın "Ulu öndər Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti", Aytən İmanovanın "Azərbaycan Xalq Cümhuriyyətinin diplomatlarının Naxçıvanla bağlı fəaliyyətləri" mövzularında məruzələri dinlənilib.

Tədbirin sonunda 28 May – Respublika Günü ilə bağlı videoçarx nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

28 May Respublika Günüdür

# Müsəlman Şərqində ilk parlamentli demokratik respublika



*Müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 100 il keçir. Cümhuriyyətin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il 16 may tarixdə Sərəncam imzalamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 10 yanvar tarixli başqa bir Sərəncamı ilə 2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir.*

Bir əsr bundan əvvəl yaradılan Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın tarixində mühüm bir hadisə idi. Çünki əsrlərboyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqil dövlətinə sahib olmuşdu. Müsəlman Şərqində, türk aləmində ilk dəfə olaraq dünyəvi, parlamentli müstəqil demokratik respublika yaranmışdı. Azərbaycan Xalq Cümhuriyyəti bütün türk və müsəlman dünyasında dünyəvi təməl üzərində qurulan ilk türk dövləti idi.

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan ərazisində yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonu və XX əsrin əvvəllərində milli müstəqillik və azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl nümayəndələri, mütəfəkkir adamları və ziyalıları xalqımızın milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunlar yekun olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

1918-ci ilin yanvarında Sovet hökuməti Rusiya Müəssislər Məclisini qovduqdan sonra Cənubi Qafqazdan seçilən deputatlar Tiflisdə toplanaraq Zaqafqaziya Seymini, aprel ayında isə Zaqafqaziya Federativ Respublikasını yaratdılar. Lakin fraksiyalar arasında mübarizə Seymin dağılmasına və respublikanın süqutuna gətirib çıxardı. Respublikanın süqutu və Seymdə təmsil olunan xalqların öz müstəqil dövlətlərini yaratması tarixi zərurətə çevrildi. Seymin Azərbaycan nümayəndəliyi mayın 27-də fövqəladə iclas keçirərək Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdü və özünü Müvəqqəti Milli Şura elan etdi. Milli Şuranın 1918-ci il mayın 28-də keçirilən birinci iclasında Azərbaycanın müstəqil respublika elan edilməsi qərara alındı və 6 bənddən ibarət İstiqlaliyyət Bəyannaməsi qəbul edildi. İstiqlaliyyət Bəyannaməsinin verildiyi elə həmin gündə Milli Şuranın tapşırığı, Fətəli xan Xoyskinin başçılığı ilə 9 nəfərdən ibarət Cümhuriyyətin ilk hökumət kabineti təşkil edildi. Azərbaycan Milli hökuməti 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsini bağladı. Bu müqavilə əsasında Osmanlı imperatorluğu Azərbaycan Xalq Cümhuriyyətini tanıyan ilk dövlət oldu.

Azərbaycan Milli Şurası və Milli hökuməti 1918-ci il iyun ayının 16-da Tiflisdən Gəncəyə köçdü və sentyabrın 15-dək burada fəaliyyət göstərdi. Bakı şəhəri S.Şaumyan başda olmaqla bolşevik-daşnak qüvvələrin əlində idi. İyun ayının 17-də Milli Şura səlahiyyətlərini yeni qurulan Müvəqqəti hökumətə verdi. İkinci hökumət kabinetinin əsas vəzifəsi hakimiyyəti ölkənin bütün ərazisinə yaymaq və Bakı şəhərini düşmənlərdən azad etməkdən ibarət idi. Fətəli xan Xoyskinin başçılıq etdiyi Milli hökumət bir sıra tədbirlər həyata keçirdi. İyunun 19-da Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. 1918-ci il 24 iyun tarixli qərarla üzərində ağ aypara və səkkizguşəli ulduz təsvir edilmiş qırmızı bayraq Cümhuriyyətin Dövlət Bayrağı kimi təsdiq edildi. Noyabr ayının 9-da bayraq mavi, qırmızı və yaşıl zolaqlardan ibarət yeni Dövlət Bayrağı ilə əvəz olundu. İyunun 26-da milli ordu, iyul ayının 15-də isə Fövqəladə Təhqiqat Komissiyası yaradıldı. Hökumətin 1918-ci il 11 avqust tarixli fərmanı ilə "Ümumi hərbi səfərbərlik" haqqında qanun qəbul edildi. 19 yaşından 24 yaşınadək müsəlman gənclər ordu sıralarına çağırıldı. Sentyabrın 1-də hərbi nazirlik yaradıldı. Baş nazir Fətəli xan Xoyski, eyni zamanda hərbi nazir oldu. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan könüllü hərbi dəstəsi Bakını düşməndən azad etdi. Sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçdü.

1918-ci il noyabrın 16-da fəaliyyətini bərpa edən Milli Şura noyabrın 19-da Azərbaycan Parlamentinin yaradılması haqqında qanun qəbul etdi. Parlamentin ilk iclası 1918-ci il dekabrın 7-də keçirildi. Hüquqşünas və tanınmış siyasi xadim Əlimərdan bəy Topçubaşov Azərbaycan Parlamentinin sədri seçildi. İlk Azərbaycan Parlamenti öz dövrünün demokratik əsaslarla təşkil edilmiş ali qanunverici orqanı idi. Azərbaycanda yaşayan bütün millət və azsaylı xalqlar bu parlamentdə təmsil edilmişdi. Parlamentdə 11 partiya, fraksiya və qrup təmsil olunmuşdu. Parlamentin 17 aylıq fəaliyyəti dövründə 156-ya yaxın iclası keçirilmiş, 270-dən çox məsələ müzakirə edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti çox çətin və mürəkkəb bir şəraitdə fəaliyyət göstərmişdir. Həmin dövrdə Azərbaycanın ümumi ərazisi 113,9 min kvadratkilometrə çatırdı ki, burada 3,3 milyon nəfərə yaxın əhali yaşayırdı. "Böyük Ermənistan" arzusu ilə yaşayan ermənilərin təcavüz hədəfində Azərbaycanın qədim torpaqları olan Zəngəzur, Qarabağ və Naxçıvan torpaqları idi. Lakin Naxçıvan əhalisi regionun Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inadla mübarizə aparırdı. Milli vətənpərvər qüvvələr Naxçıvan bölgəsini erməni təcavüzündən qorumaq üçün 1918-ci il noyabrın 18-də Araz-Türk Respublikasını yaratdılar. Bu respublikanın ərazisi Naxçıvan, Şərur-Dərələyəz, Ordubad və Sürməli qəzalarını, Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar, Mehri və başqa bölgələri əhatə edirdi. Sahəsi 8,7 min kvadratkilometr, əhalisi isə 1 milyon nəfərə yaxın idi. Nazirlər Şurasının sədri Əmir bəy Nərimanbəyov, respublikanın paytaxtı Naxçıvan şəhəri idi. Araz-Türk Respublikası Naxçıvanın daşnak hücumlarından qorunmasında mühüm rol oynadı.

Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvanı qorumaq üçün imkan daxilində köməklik göstərir, siyasi dəstək verir, hərbi, iqtisadi və mədəni cəhətdən yardımlar edirdi. Naxçıvan məsələsi bir neçə dəfə Azərbaycan Parlamentində müzakirə edilmiş, erməni təcavüzünün qarşısını almaq üçün əməli tədbirlər görülmüşdü. 1919-cu ilin dövlət büdcəsində Bakı-Culfa dəmir yolunun çəkilməsi üçün vəsait ayrılmış, dəfələrlə pul vəsaiti göndərilmiş, hərbçiləri təlim üçün ayırmış, Qarabağ general-qubernatorluğu tərkibində Naxçıvan məsələləri üçün müvəkkil təyin edilmişdi. Naxçıvanı Ermənistanın müvəqqəti idarəçiliyinə vermək istəyən ingilis və amerikanlarla danışıqlar aparılmış, kəskin etiraz bildirilmişdi. Cümhuriyyət hökuməti Naxçıvanda öz suveren hüquqlarını və hakimiyyətini qəti şəkildə bərqərar etmək üçün 1919-cu il fevralın 28-də Araz-Türk Respublikasının yerində Naxçıvan general-qubernatorluğu yaratdı. Əvvəlcə Bəhram xan Naxçıvanski, sonra isə Haşımbəyov və S.Cəmillinski general-qubernator təyin edildilər. Azərbaycan hökuməti Naxçıvan əhalisinin iradəsini ifadə edərək bildirdi ki, Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir və bu ölkə milli hakimiyyət orqanları tərəfindən idarə olunacaqdır. Bununla da erməni daşnaklarının Naxçıvan torpağını zorla Azərbaycandan ayırmaq cəhdləri boşa çıxdı.

Azərbaycan Xalq Cümhuriyyəti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitlə üzləşsə də, ölkənin sosial-iqtisadi həyatı, milli-mədəni quruculuq sahələri ilə bağlı çoxsaylı işlər həyata keçirmiş, gömrük xidməti yaradılmış, neft sənayesini dirçəltmək üçün milliləşdirmə tədbirləri görülmüş, xarici şirkətlərlə sazişlər bağlanmış, yeni maliyyə siyasəti tətbiq olunmuş, "Bakı bonu" adlandırılan milli pul vahidi dövriyyəyə buraxılmış, sosial siyasətlə bağlı proqram işlənib hazırlanmışdı.

Bu dəyişikliklər mədəni quruculuq sahəsində də uğurla yerinə yetirilmişdi. Təhsil müəssisələri milliləşdirilmiş, Azərbaycan dili məktəblərdə məcburi fənn kimi tətbiq edilmiş, bir sıra yer adları dəyişdirilmiş, Rusiya tarixi əvəzinə Türk xalqlarının tarixi fənni tədris edilməyə başlanmışdı, Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürülmüş, Bakı Dövlət Universiteti yaradılmış, ali təhsilli milli kadrların hazırlanmasına başlanılmış, 100 nəfər azərbaycanlı gənc xarici ölkələrdə təhsil almaq üçün göndərilmiş, milli kitabxana açılmış, Azərbaycan Teleqraf Agentliyi, Azərbaycan radiosu, Azərbaycan Dövlət Türk Opera Dram Teatrı yaradılmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin qarşısında dayanan ən vacib vəzifə Azərbaycanın dövlət müstəqilliyinin tanıdılması idi. Bunun üçün Birinci Dünya müharibəsinin nəticələrinin müzakirə edildiyi Paris sülh konfransına nümayəndə heyəti göndərildi. Paris Sülh Konfransı 1919-cu il yanvarın 18-dən 1920-ci il yanvarın 21-nə qədər fasilələrlə davam etdi. Konfransda 27 dövlətin nümayəndələri iştirak etsə də, dünyanın taleyini, əsasən, "böyük dördlük" – ABŞ prezidenti V.Vilson, Britaniyanın baş naziri L.Corc, Fransanın baş naziri J.Klemanso və İtaliyanın baş naziri V.Orlando həll edirdi. Sülh nümayəndə heyətinə sədr Əlimərdan bəy Topçubaşov, üzvlər isə Məmmədhəsən Hacınski, Əhməd bəy Ağayev, Məmməd Məhərrəmov, Əkbər ağa Şeyxülislamov, Miryaqub Mirmehdiyev və Ceyhun bəy Hacıbəyov daxil idi. Əhməd bəy Ağayev gedə bilmədiyindən onu Abbas bəy Atamalıbəyov əvəz etmişdi. Nümayəndə heyəti çox gec – may ayının əvvəlində Parisə gəlib çıxa bilmişdi. Əsas məqsəd Paris sülh konfransının Ali Şurası tərəfindən Azərbaycanın müstəqilliyinin tanınmasına nail olmaqdan ibarət idi. Qafqaz üçün Rusiya təhlükəsinin getdikcə artdığı bir şəraitdə İngiltərənin xarici işlər naziri lord Kerzonun təklifi ilə 1920-ci il yanvar ayının 11-də sülh konfransı tərəfindən Azərbaycanın müstəqilliyi de-fakto tanındı. Bu münasibətlə yanvar ayının 14-ü Azərbaycanda qeyri-iş günü elan olundu, həmin gün Bakıda bayram şənlikləri və hərbi parad keçirildi.

Erməni daşnaklarının vasitəçiliyi, Sovet Rusiyasının hərbi müdafiəsi nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti işğal olundu. Azərbaycan Parlamenti aprel ayının 27-də rus ordusunun təzyiqləri altında hakimiyyətin Azərbaycan müsəlman kommunistlərinə təhvil verilməsi haqqında qərar qəbul etdi.

Azərbaycan dövləti Qərb ölkələri tərəfindən rəsmi şəkildə tanınan ilk türk və müsəlman respublikası idi. Azərbaycan xalqının milli azadlıq hərəkatının qanunauyğun nəticəsi kimi yaranmış, xalqımızın demokratik ənənələrinin qanuni varisi kimi formalaşmış Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçiliyimizin tarixi nailiyyəti idi. O, Azərbaycan xalqının əzəli arzusu olan müstəqilliyin gələcəkdə gerçəkləşməsi üçün zəngin ənənələr və möhkəm mənəvi zəmin yaratdı.

Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin və xalqımızın tarixində və taleyində oynadığı tarixi roldan bəhs edən ümummilli lider Heydər Əliyev demişdir: ***"Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi".***

Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. Xalq özünün istiqlal arzularını nəsildən-nəslə ötürdü. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etdi, həm iqtisadi, həm də sosial sahədə böyük uğurlar qazandı. Görkəmli dövlət xadiminin rəhbərliyi altında həyata keçirilmiş tədbirlər ölkəmizin müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratdı.

Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövləti ideyasının həyata keçiriləcəyinə öz varlığı kimi inanır və həmin vaxtın yaxınlaşmasını aydın görərək bu istiqamətdə müdrikliklə, böyük ustalıqla iş aparırdı. Ulu öndərin Naxçıvanda yaşadığı illər, Naxçıvan Muxtar Respublikası parlamentində bu görkəmli dövlət xadiminin sədrliyi və təşəbbüsü ilə qəbul olunan qərarlarla müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclas zalında qaldırıldı. 1992-ci il mayın 28-də isə Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində Sədərək-Dilucu körpüsü istifadəyə verildi. Bu tarix elə bir dövrə təsadüf edir ki, Naxçıvan tamamilə təklənmişdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın əsas ərazisi ilə nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş, iqtisadi böhran dərinləşmişdi. Belə bir şəraitdə Türkiyə ilə münasibətlərin bərpası istiqamətində Naxçıvanda görülən işlər, atılan addımlar Azərbaycan-Türkiyə münasibətlərinin gələcəyinə – bu gününə hesablanmışdı.

Ümummilli lider Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin 75 illik yubileyi də ilk dəfə Naxçıvanda qeyd olunmuşdur.

1991-ci ildə Azərbaycan yenidən öz dövlət müstəqilliyini bərpa etdi, Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu ümumxalq iradəsi ilə təsdiqlədi. Lakin bu dövrdə öz müstəqilliyini bəyan edən Azərbaycan dövlətinin möhkəmləndirilməsinin qarşısının alınması üçün bəzi xarici qüvvələr və daxildə olan imperyapərəst ünsürlər böyük manevrlər və problemlər yaratmağa başladılar. Ermənistanın əsassız torpaq iddiası ilə bağlı Azərbaycana hərbi təcavüzü, separatçı qüvvələrin baş qaldırması, daxildə müxtəlif təxribatlar törədilməsi ölkədə mürəkkəb vəziyyət yaratdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Xalqımızın bəxti onda gətirmişdir ki, ötən əsrin sonlarında nail olduğumuz ikinci dövlət müstəqilliyi üçün real təhlükə yarandığı bir dövrdə Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yenidən ali hakimiyyətə qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçiliyi arzudan reallığa çevirmişdir".***

1993-cü ildə 1920-ci ildəki tarixin təkrar olunmaması, müstəqilliyin itirilməməsi üçün xalqımız ümummilli lider Heydər Əliyevi Azərbaycanın siyasi hakimiyyətinə dəvət etdi. Məhz ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs, strateji xətt Azərbaycanı xilas etdi, onu müasir, müstəqil və güclü dövlətə çevirdi. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətinin ikinci dövründə Xalq Cümhuriyyətinin əsl tarixinin, cümhuriyyət xadimlərinin həyat və fəaliyyətinin, siyasi irsinin öyrənilməsi, şərəfli tarixinin yazılması, bu tarixin bütün yönləri ilə müasir nəsillərə çatdırılması, cümhuriyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsi kimi məsələlər həyata keçirilmişdir.

*Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətini yaratmış, onun memarı, qurucusu və xilaskarı olmuşdur. Azərbaycan Respublikası müstəqilliyini qorumuş və möhkəmləndirmiş, dövlətçiliyin qorunması üçün qətiyyətli tədbirlər görülmüş, Azərbaycanın müstəqilliyi əbədi və dönməz etmişdir. Dahi şəxsiyyət Azərbaycan Xalq Cümhuriyyəti ilə müstəqil Azərbaycan Respublikası arasında varislik əlaqəsini təmin etmişdir. Bu gün Heydər Əliyev siyasi kursu ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıl surətdə həyata keçirilir. Azərbaycan tarixinin şanlı səhifəsi olan Xalq Cümhuriyyətinin fəaliyyəti müntəzəm öyrənilir, bu ideyaların inkişaf etdirilməsi və həyata keçirilməsi üçün ciddi işlər görülür. Ölkə Prezidenti cənab İlham Əliyev demişdir:* ***"Yüz il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaranmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və iki il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkədir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir".***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Naxçıvan Asiya və Sakit okean mətbuatında

Naxçıvan Muxtar Respublikasının turizm potensialına, təbii gözəlliklərinə və tarixi-mədəni zənginliklərinə dünya mediasında böyük maraq göstərilməkdədir. Dünyanın aparıcı elektron informasiya agentlikləri, internet portalları Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının turizm ehtiyatları və 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı kimi Naxçıvan şəhəri barədə çox maraqlı materiallar yayımlayırlar.




YUNESKO-nun təşəbbüsü ilə 1961-ci ildə yaradılmış və mərkəzi Tailandın Banqkok şəhərində yerləşən Asiya və Sakit Okean Xəbər Agentlikləri Təşkilatının (OANA) internet portalında yerləşdirilmiş Naxçıvan Televiziyasının məhsulu olan yeni təqdimat videosu bu baxımdan qədim diyarın bütün gözəlliklərini bir daha dünyaya tanıdır. Yüksək peşəkarlıqla hazırlanmış və 3 dəqiqədən artıq davam edən tanıtım videosunda əsas giriş qapılarından biri olan Beynəlxalq Hava Limanından başlayaraq Naxçıvana gələn turistlərin qala biləcəkləri mehmanxanalar, onlara təqdim edilə biləcək görməli yerlər, tarixi abidələr və məkanlar, muzeylər və incəsənət nümunələri, milli geyimlər, xalçaçılıq ənənələri və milli musiqi sənəti, eləcə də Naxçıvanın meyvəçilik, kulinariya adətləri haqqında maraqlı kadrlar diqqəti cəlb edir. Videonu izləyənlər Naxçıvanın müqəddəs Əshabi-Kəhf ziyarətgahı, Əlincə qalası, Pəzməri şəlaləsi, təbiət gözəli Batabatı, vüqarlı Haçadağı, dörd fəslin gözəlliklərini eyni anda yaşadan Göygölü, Ağbulaq İstirahət Mərkəzi, Duzdağ oteli və şəhərimizin digər asudə vaxt guşələri haqqında dolğun virtual məlumat ala bilirlər.

Sonda Naxçıvan şəhərinin Dövlət Bayraq Meydanında dalğalanan üçrəngli Azərbaycan bayrağının görüntüsü ilə sona çatan bu video, şübhəsiz, belə bir geniş auditoriyası olan informasiya agentliyində böyük maraq doğuracaq.

Qeyd edək ki, dünya iqtisadiyyatının 56 faizinə malik olan və dünya əhalisinin yarıdan çoxunun yaşadığı bir bölgənin informasiya agentlikləri arasında birbaşa və pulsuz xəbər mübadiləsi təmin etmək üçün yaradılmış OANA təşkilatı 35 ölkədən 44 xəbər agentliyini bir araya gətirir və onun üzvləri dünyada yayılan informasiyanın üçdə ikisinə sahibdir.

**✍ Əli CABBAROV**

## Ölkə üçün təbii Naxçıvan modeli

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən ardıcıl ekoloji tədbirlər bu gün dünya miqyasında nümunə kimi götürülür. Yeni yaşıllıq zolaqlarının və meşələrin salınması, təbiətin mühafizəsi, flora və fauna ehtiyatlarının qorunması, ova qadağanın tətbiqi, aparılan ardıcıl maarifləndirmə işləri nəticəsində insanların təbiətə doğma münasibətinin formalaşdırılması, təbii sərvətlərdən səmərəli istifadə muxtar respublikamızda bu sahədə əldə edilən uğurlu nəticələrin tərkib hissəsi kimi dəyərləndirilir.




Ötən günlərdə “Real” televiziyasının “Ekskluziv” proqramının qonağı olan Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev muxtar respublikada bu sahədə görülən işləri ölkəmiz üçün model adlandırıb və əldə edilən müsbət təcrübənin ümumi Azərbaycan miqyasında yayılmasının vacibliyini vurğulayıb.

Nazirin müsahibəsinin Naxçıvana aid hissəsi “Ölkə üçün təbii Naxçıvan modeli” başlığı ilə təqdim edilib. Əməkdar jurnalist Mirşahin Ağayevin suallarını cavablandıran Muxtar Babayev deyib: “Müqayisə etsək, görərik ki, Naxçıvan Muxtar Respublikasında ətraf mühitin qorunmasına, yaşıllıqların salınmasına çox böyük diqqət göstərilir. Orada insanlar hər bir ağaca sevgi və məhəbbətlə yanaşır, ona qayğı göstərir. Yaşıllıqların qorunması üçün hərtərəfli tədbirlər görülüb. Ən əsası isə, qeyd etdiyim kimi, uşaqlar da, böyüklər də yaşıllıqların salınmasına çox böyük diqqət yetirir. Onu da qeyd etmək yerinə düşərdi ki, Naxçıvanda münbit torpaq çox azdır. Bu mənada, orada belə bir yaşıllıqların salınması və qorunması çətin bir prosesdir”.

Nazir Azərbaycanda ekoloji vəziyyət, təbii sərvətlərdən istifadə, yaşıllıqların qorunması, bu sahədə cərimələrin tətbiqi, ekoturizmin inkişafı və qarşıdakı dövr ərzində görüləcək işlər barədə danışarkən bir daha Naxçıvan Muxtar Respublikasına bu günlərdə etdiyi səfəri xatırladıb və Naxçıvanda bu sahədə görülən işləri yüksək dəyərləndirib. O deyib: “Naxçıvanda istər qoruqlarda, istər milli parklarda, istərsə də digər ərazilərdə biomüxtəlifliyin qorunması, ekoturizmin inkişaf etdirilməsi yüksək səviyyədə təşkil olunub. Mən Naxçıvana səfərdə real olaraq hiss etdim ki, bizim xalqımız təbiəti sevən, təbiətə qiymət verən bir xalqdır. Naxçıvanda biz bunu gördük, hiss etdik və həm də fəxr etdik ki, bizdə – Azərbaycanın gözəl bir guşəsi olan bu qədim diyarda təbiətə israfçılıq prizmasından baxılması demək olar ki, yoxdur. Ona görə ki, həm böyük təbliğat işləri aparılır, həm də tələbkarlıq var”.

Nazir Muxtar Babayev çıxışının sonunda Naxçıvanda əldə edilən müsbət təcrübənin ümumrespublika miqyasında yayılmasının vacibliyini vurğulayıb. “Azərbaycanın digər bölgələrində təbiətin, ətraf mühitin qorunması, yaşıllıqların salınması, bu sahələrdə tarazlığın qorunması və digər bu kimi məsələlərdə Naxçıvan təcrübəsini tətbiq etməyə çalışacağıq”, – deyə Azərbaycanın ekologiya və təbii sərvətlər naziri bildirib.

***“NUHÇIXAN” İnformasiya Agentliyi***

## Səyyar kollegiya iclası keçirilib

Mayın 25-də Ordubad Rayon Mərkəzi Xəstəxanasında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin kollegiya iclası keçirilib.

Səhiyyə naziri Niyazi Novruzov çıxış edərək bildirib ki, Ali Məclis Sədrinin qayğısı nəticəsində bu gün səhiyyə müəssisələrimizdə müayinə və müalicə işləri dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlar, yeni texnologiyalar vasitəsilə aparılır. Ordubad Rayon Mərkəzi Xəstəxanası da belə səhiyyə müəssisələrindən biridir.

Qeyd olunub ki, Bakı şəhərindən muxtar respublikamıza yüksəkixtisaslı mütəxəssislərin dəvət olunaraq müxtəlif cərrahi əməliyyatlar aparmaları, humanitar tibbi aksiyaların keçirilməsi ənənə halını alıb. Aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatların təşkili onlara həm maddi, həm də mənəvi dəstək olub. Rayonda sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması əhalinin hər bir təbəqəsinin sağlamlığının qorunmasında əsaslı dönüş yaradıb.

İclasda səhiyyə nazirinin müavini Samrat Gəncəyeva, nazirliyin əməkdaşlarından İbrahim Ağayev, Kəmalə Həsənova və Sərxan Əkbərov çıxış ediblər.

Kollegiya iclasında işdə yol verilən nöqsanlar qeyd olunub, müvafiq səhiyyə müəssisələrinin rəhbərlərinə konkret tapşırıqlar verilib.

Tədbirdən sonra kollegiya iştirakçıları Ordubad Rayon Mərkəzi Xəstəxanasının maddi-texniki bazası ilə tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Sığorta sahəsində görülmüş işlər müzakirə olunub



Mayın 25-də Sədərək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr barədə tədbir keçirilib. Tədbirdə giriş sözü ilə çıxış edən İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov son illərdə rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov bildirib ki, ötən müddət ərzində Sədərək rayonunda hüquqi və fiziki şəxslərin sığortaya cəlb olunması istiqamətində müəyyən işlər görülüb, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayında artım olub. Belə ki, rayonda cari ilin ilk beş ayında sığorta haqlarının toplanması ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz, sığorta müqavilələrinin sayı isə 15 ədəd artıb.

Tədbirdə daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari, ev əmlakı, fərdi qəza sığortaları və digər sığora növləri üzrə mövcud vəziyyət təhlil edilib.

Sonra Sədərək Rayon Polis Şöbəsinin Kadrlar və şəxsi heyətlə iş üzrə baş inspektor səlahiyyətlərini əvəz edən polis kapitanı Nail Piriyev, rayon Yanğın Təhlükəsizliyi Şöbəsinin müfəttişi Bayram Şükürov, Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Seymur Məmmədov icbari sığortalar sahəsində görülmüş işlərin vəziyyəti barədə məlumat veriblər.

**✍ Ə.CABBAROV**

## Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir

Babək Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov qeyd edib ki, bu gün muxtar respublikada, o cümlədən Babək rayonunda uşaqların təhsilinə, təlim-tərbiyəsinə xüsusi diqqət və qayğı göstərilir. Bu məqsədlə ümumtəhsil məktəbləri, uşaq musiqi məktəbləri, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələri üçün binalar tikilərək, mövcud binalar isə yenidən qurularaq istifadəyə verilib, onların maddi-texniki bazası gücləndirilib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlara, habelə aztəminatlı, çoxuşaqlı ailələrdən olan uşaqlara dövlət qayğısının göstərilməsi diqqət mərkəzində saxlanılır. Komitə tərəfindən monitorinqlər, sağlamlıq imkanları məhdud uşaqların xəstəlikləri üzrə təhlillər aparılıb, bununla əlaqədar yaşayış məntəqələrində maarifləndirici tədbirlər keçirilib.



Sonra 2017-2018-ci tədris ilində rayonda müxtəlif sahələr üzrə fərqlənən şagirdlərə fəxri fərmanlar və hədiyyələr təqdim olunub. Tədbir konsert proqramı ilə başa çatıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik tariximizdəki roluna həsr edilmiş interaktiv dərs



AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə keçilən növbəti interaktiv dərsdə Azərbaycan Xalq Cümhuriyyəti haqqında şagirdlərə ətraflı məlumat verilib. Dərs Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2018-ci il 25 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı”na uyğun olaraq təşkil edilmişdi.

Bölmənin sədri, akademik İsmayıl Hacıyev dərsdə Azərbaycan xalqının 1918-ci il may ayının 28-də gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə yaratdığı, türk-müsəlman dünyasında ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki yeri və rolundan geniş danışıb.

Interaktiv dərsdə cümhuriyyət dövründə milli təhsil sisteminin formalaşdırılmasından, təhsilin ana dilində aparılmasından, ali təhsilli milli kadrların hazırlanması üçün Bakı Dövlət Universitetinin yaradılmasından, xarici ölkələrin qabaqcıl ali məktəblərində oxumaq üçün 100 azərbaycanlı gəncin Türkiyəyə, İngiltərəyə, İtaliyaya, Fransaya, Rusiyaya və başqa ölkələrə göndərilməsindən də bəhs olunub.



*Naxçıvan şəhəri, Qaraxanbəyli kənd tam orta məktəbi*



*Ordubad rayonu, Aşağı Əylis kənd tam orta məktəbi*

Diqqətə çatdırılıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyəti ərzində ölkədə insan hüquq və azadlıqlarının, sülh və demokratiyanın təmin olunması, milli dəyərlərimizin təbliği, milli mədəniyyətimizin inkişafı, tarixi yer adlarımızın bərpası kimi mühüm işlər görülüb.

Müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu bildirən İsmayıl Hacıyev ilk müstəqil dövlətimizin tarixinin öyrənilməsi və xalqımızın bununla bağlı məlumatlandırılması sahəsində ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən, Prezident cənab İlham Əliyevin bu istiqamətdə gördüyü məqsədyönlü işlərdən də danışıb, bu tarixin öyrənilməsinin çox böyük tarixi-siyasi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Açıq dərs muxtar respublikanın 200-dən artıq ümumtəhsil məktəbində izlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Torpaqların elektron kadastr uçotu informasiya sisteminin proqram təminatının hazırlanması istiqamətində görülən işlər müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində bu münasibətlə keçirilən tədbirdə komitənin sədri Müslüm Cabbarzadə çıxış edərək bildirib ki, yeni yaradılacaq sistem torpaqların uçotunun müasir tələblərə uyğun aparılmasına, məkan məlumatları infrastrukturunun formalaşmasına, bu sahədə aparılan işlərin texnoloji cəhətdən modernləşdirilməsinə zəmin yaradır. Məqsəd təyinatından və mülkiyyət növündən asılı olmayaraq, muxtar respublika üzrə bütün kateqoriyalı torpaqların elektron kadastr uçotuna alınmasını, ərazilərin rəqəmsal xəritələrinin hazırlanmasını, avtomatlaşdırılmış torpaq kadastr informasiya sisteminin və mükəmməl torpaq bankının yaradılmasını təmin etməkdir.

Diqqətə çatdırılıb ki, məlumatların yaradılacaq sistemə miqrasiya edilməsi məqsədilə aid mütəxəssislərlə birlikdə muxtar respublika üzrə vətəndaşların qanuni istifadəsində olan və torpaq islahatı zamanı onların mülkiyyətinə verilmiş torpaq sahələrinə və onların mülkiyyətçilərinə dair məlumatlar sistemləşdirilərək vahid formada yığılıb. Muxtar respublikanın inzibati ərazi bölgüsünün təsnifatı statistik kodlar üzrə məlumat bazası formasında hazırlanıb.

“R.İ.S.K.” Elmi İstehsalat Şirkətinin baş direktoru Cabir Cümşüdov bildirib ki, torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması və rəqəmsal kadastr xəritəsinin tərtib edilməsi işinin başa çatdırılması torpaqların hüquqi və texniki sənədlərdəki məkan göstəriciləri ilə faktiki istifadə vəziyyətinin məkan göstəriciləri arasındakı mövcud olan uyğunsuzluqları aradan qaldırmağa imkan verəcəkdir.

Sonra proqram təminatının hazır modullarının təqdimatı olub.

✍ **Səbuhi HƏSƏNOV**

***Mayın 25-də Naxçıvan Dövlət Tarix Muzeyində “Görkəmli rəssam Şamil Qazıyevin yaradıcılığında Naxçıvan” mövzusunda yekun-sərgi-ustad dərs keçilib.***

## Yekun-sərgi-ustad dərsi keçilib

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun “Görkəmli rəssam Şamil Qazıyevin 110 illik yubileyinin keçirilməsi haqqında” 2018-ci il 1 fevral tarixli Sərəncamına əsasən görkəmli fırça ustasının yubileyi bu il qədim diyarımızda yüksək səviyyədə qeyd olunmaqdadır. Sərəncama əsasən təsdiq edilmiş Tədbirlər Planına əsasən Şamil Qazıyevin həyat və yaradıcılığı ilə bağlı silsilə tədbirlər keçirilir. Yekun-sərgi-ustad dərsi də görkəmli rəssamın yubileyi ilə bağlı Mədəniyyət Nazirliyi tərəfindən keçirilən belə tədbirlərdəndir.

Sonra Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov “Görkəmli rəssam Şamil Qazıyevin yaradıcılığında Naxçıvan” mövzusunda çıxış edib.

Tədbir iştirakçıları rəssamın əsərlərindən ibarət sərgiyə baxıblar.

Sonda ustad dərs keçilib.

**Əli RZAYEV**

## Gülür nurlu səhərim, Araz üstü şəhərim



Bu gün hər birimiz iftixar hissi ilə deyirik: “Bura Naxçıvandır!” Hər daşı-qayası min bir tarix danışan, qoynunda əzəmətli yadigarlara böyük sədaqətlə qucaq açan, nura, yaraşığa, güllük-gülüstana qərq olan doğma şəhərimiz – qürur, iftixar yerimiz! Qədim diyarımızın milli zənginliyindən xəbər verən, hər biri bir memarlıq incisi olan tarixi abidələr, muzeylər, yeni tikilən modern səhiyyə, təhsil mədəniyyət ocaqları şəhərimizin mənzərəsinə gözəllik, müasirlik, yenilik bəxş edir. Ələlxüsus da, küçə və parklarda, prospekt və meydanlarda məxsusi elementlərdən, o cümlədən ağaclar, bəzək kolları və müxtəlif gül-çiçəklərdən yüksək zövqlə istifadə olunması bu qədim şəhəri sehrli bir nağıl dünyasına çevirib.

Şəhərimizdə son illərdə, sözün əsl mənasında, yaşıllıqlar sürətlə genişlənməkdə, bir-birindən gözəl istirahət, əyləncə parklarının və xiyabanların sayı artmaqdadır. Bu gün abad şəhərin yaraşığı olan yaşıllıqlar, kölgəsində sərinlədiyimiz əzəmətli ağaclar, parklarda, xiyabanlarda gözoxşayan təmizlik və abadlıq şəhərin səliqə-sahmanına, gözəlliyinə sığal çəkən əllərin bəhrəsidir. Bu abad diyarda şəhər sakinlərinin hər mövsümdə, xüsusilə də yaz-yay mövsümlərində mənalı istirahəti üçün hər cür şərait yaradılıb.

Hər il baharın gəlişi xalqımızın min illər ərzində formalaşmış adət-ənənələrinə uyğun olaraq ağac əkməklə, səliqə-sahman yaratmaqla qarşılanır. Təbiətin oyandığı ilk günlərdən iməciliklər keçirilir, yeni meyvə bağları salınır, mövsümə uyğun aqrotexniki tədbirlər görülür.

Bu ilin yazında da muxtar respublikada ənənəvi olaraq ayrı-ayrı ərazilərdə, yaşayış massivlərində yeni yaşıllıq zonalarının yaradılmasında və həmçinin mövcud yaşıllıqların qorunub saxlanılmasında müəssisə, idarə və təşkilatlar, ictimaiyyət nümayəndələri keçirilən iməciliklərdə fəal iştirak edirlər. Bunu Naxçıvan şəhərinin timsalında da görmək olar.

Hər il olduğu kimi, bu il də mart ayından başlayaraq şəhərin müxtəlif ərazilərində mindən çox ting, həmişəyaşıl ağac və bəzək kolları əkilib. Yurdumuzun hər guşəsində məskən salan, təbiətin ən zərif, kövrək, nazlı qızı olan çiçəklər şəhərimizin gözəlliyinə xüsusi bəzək bəxş edib. Şəhərin hər bir yerində insanların zövqünü oxşayan, baxdıqca baxmaq istədiyimiz güllərin əlvan rəngləri yaşıl otların arasında son dərəcə heyrətamiz mənzərə yaradır. Şəhərin müxtəlif ərazilərində insanı qaməti ilə valeh edən çoxlu sayda gül və çiçək əkilib. Əkilən gül-çiçəklərə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərilir, ərazilərdə mütəmadi olaraq abadlıq və təmizlik işləri aparılır.



Şəhərimizin mərkəzi küçələrində, parklarında, istirahət mərkəzlərində olan gözəllik nümunələri öz təravətilə şəhər sakinlərinin və bura gələn qonaqların könlünü oxşayır. Əkilən ağaclar, rəngarəng çiçəklər, al-əlvan güllər isə insanları ana təbiəti sevməyə, onu qorumağa çağırır. Təsadüfi deyil ki, indi bu şəhərə qədəm qoyan hər kəs buradakı təmizliyə, yaşıllıqların, gül-çiçəyin yaratdığı füsunkar gözəlliyə biganə qala bilmir.

Insan qəlbinin dərinliyində baş qaldıran o ülvi hisslər dillərdə səslənir: səni sevməmək üçün zərrə qədər qüsurun yoxdur, güllü-çiçəkli Naxçıvanım!

✍ **Gülcamal TAHİROVA**







## Basketbol üzrə muxtar respublika turnirində “Naxçıvan” komandası qalib olub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Basketbol Federasiyasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş “Heydər Əliyev kuboku” uğrunda 2001-2002-ci illər təvəllüdlü oğlanlar arasında basketbol üzrə muxtar respublika turniri keçirilib.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən turnirin açılış mərasimində Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Basketbol Federasiyasının sədri Mahir Əliyev çıxış edərək turnir haqqında geniş məlumat verib, idmançılara uğurlar arzulayıblar.

Dairəvi sistem üzrə keçirilən və iki gün davam edən turnirdə 4 komanda mübarizə aparıb. İlk olaraq meydana üçüncü yer uğrunda “Babək” və “Şərur” komandaları çıxıb. Daha üstün oyun sərgiləyən babəklilər meydanı 30:12 hesablı qələbə ilə tərk ediblər. Turnirin həlledici qarşılaşmasında isə “Naxçıvan” və “Ordubad” komandaları üz-üzə gəlib. Gərgin idman mübarizəsində keçən görüş Naxçıvan basketbolçularının 56:49 hesablı qələbəsi ilə başa çatıb.

Sonda ilk üç pilləni tutan komandalar mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Basketbol Federasiyasının sədri Mahir Əliyev təqdim ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Elan

Rəqəmli televiziya və FM radioyayım tezliklərinin koordinasiyası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi və İran İslam Respublikasının İnformasiya və Kommunikasiya Texnologiyaları Nazirliyi arasında imzalanmış protokolun icrası ilə əlaqədar sərhəd bölgələrində qarşılıqlı maneə təsirlərinin aradan qaldırılması məqsədilə 1 iyun 2018-ci il tarixdən Duzdağ Radio-Televiziya Verici Stansiyasından FM diapazonunda radioyayımı həyata keçirən Naxçıvanın Dövlət radiosu 104.0 Mhz FM tezliyindən 104.1 Mhz FM tezliyinə, İctimai radio 103.4 Mhz FM tezliyindən 98.1 Mhz FM tezliyinə, Azərbaycan Milli Radiosu 102.5 Mhz FM tezliyindən 102.1 Mhz FM tezliyinə, “Araz” FM 94.0 Mhz FM tezliyindən 94.1 Mhz FM tezliyinə, “Azad Azərbaycan” radiosu isə 106.3 Mhz FM tezliyindən 90.1 Mhz FM tezliyinə keçiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi***

### İtmişdir

Həsənli Asiman Mahmud oğlunun adına olan MH-0042572 inventar nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 388